**Məlumatların əldə edilməsi xidməti avtomatlaşdırılıb**

Artıq pensiyaçılar və sığortaolunanlar məlumatları asan şəkildə əldə edə biləcəklər. Belə ki, Dövlət Sosial Müdafiə Fondu tərəfindən həyata keçirilən bu xidmətlər «Elektron hökumət» portalına inteqrasiya olunub. Portala ilk daxil olan xidmət pensiyaçıların məlumat əldə edə bilməsi xidmətidir. Bu xidmətin göstərilməsi «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmana, Nazirlər Kabinetinin «Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları»na və «İnformasiya əldə etmək haqqında» Qanuna uyğun olaraq aparılır. Xidmət tam avtomatlaşdırılıb və sorğular dərhal cavablandırılır. Ödənişsiz həyata keçiriləcək bu xidmət pensiyaçıların öz pensiyaları barədə fərdi məlumatları Dövlət Sosial Müdafiə Fondunun yerli orqanlarına getmədən əldə edə bilməsinə imkan verir.

Xidmətdən istifadə etmək üçün pensiyaçı pensiyasının təyin olunma tarixi, məbləği və növü barədə fərdi məlumatın əldə edilməsi üçün «Elektron hökumət» Dövlət İnformasiya Sisteminə sorğu daxil edir. Sistem üzrə müəyyənləşdirilmiş şərtlər əsasında sorğu dərhal icraya qəbul olunur. Xidmətin yerinə yetirilməsinə nəzarət funksiyasını Dövlət Sosial Müdafiə Fondu həyata keçirir.

Portala daxil olan sığortaolunanlar tərəfindən məlumatın əldə edilməsi xidməti DSMF tərəfindən açılmış fərdi şəxsi hesablarda əks olunan pensiya kapitalı barədə məlumatların əldə edilməsini əhatə edir. Xidmətdən istifadə edən sığortaolunanlar da fərdi şəxsi hesabındakı məlumatları DSMF-nin yerli orqanlarına getmədən əldə edə biləcəklər. Ödənişsiz olan bu xidmətdən fiziki şəxslər istifadə edə bilərlər. Elektron imzası və DSMF-nin fərdi uçot sistemində sığorta olunan kimi uçotda olmayan şəxsə xidmətin göstərilməsi sistem tərəfindən imtina edilir.

«Elektron hökumət» portalına inteqrasiya olunan bu xidmətlərə vətəndaşların, konkret olaraq pensiyaçıların və sığortaolunanların mövqeyini öyrənmək üçün Bakı küçələrində kiçik bir sorğu keçirdik. Bankomat vasitəsilə cari hesabında balansını öyrənmək istəyən pensiyaçı Əli Rüstəmov belə bir xidmət haqda məlumatsız olduğunu bildirdi. Bu barədə ona məlumat verildikdən sonra Əli dayı bunu çox müsbət qarşıladığını və yaşlı insanların artıq əziyyət çəkmədən, Dövlət Sosial Müdafiə Fondunun yerli orqanlarına getmədən zəruri məlumat əldə etmələrinə imkan yaratdığını əlavə etdi. Bundan sonra bu xidmətin istifadəçisi olacağını qeyd edən Ə.Rüstəmov görülən işdə əməyi olan hər bir şəxsə minnətdarlığını bildirdi.

Bakı şəhərində kicik ticarət obyektinin sahibi olan Aidə xanım isə bizimlə söhbətdə tətbiq olunan yenilikdən xəbərdar olduğunu və bu xidmətdən yararlandığını, eyni zamanda işçilərini də bu barədə məlumatlandırdığını qeyd etdi.

Aytən NƏBİYEVA